**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**

«Təsdiq edirəm»
Tədris məsələləri
üzrə prorektor v.i.e:
dos. Zaur Məmmədov
"13" 01 2026-cı il

# FƏNN SILLABUSU
(işçi tədris proqramı)

**İxtisasın şifri və adı:** 7001001- Pedaqogika
**İxtisaslaşma:** Tarixin tədrisi
**Fakültə:** Tarix- coğrafiya incəsənət
**Kafedra:** Tarix və onun tədrisi metodikası
**I Fənn haqqında məlumat**
**Fənnin adı:** S/f Tarixin tədrisi prosesində əyanilik və onun vasitələri (İşçi proqram. Tarix və onun tədrisi metodikası kafedrasının 13.02.2026-cı il tarixli qərarı ilə təsdiq edilmişdir. Protokol №6)
**Fənnin kodu:** MSF-B02.3
**Tədris ili:** 2025-2026
**Semestr:** II (yaz)
**Tədris yükü:** Cəmi:180 saat. Auditoriya yükü 30 saat: (15 saat mühazirə, 15 saat seminar)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit sayı:** 6 kredit
**II. Müəllim haqqında məlumat:**
**Soyadı, adı, ata adı, elmi dərəcəsi və elmi adı:** dos. İbadov Rakif Hüseyn oğlu.
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Ə.Məmmədov küçəsi, 22.
**Məsləhət saatı:** I-II günlər saat: $14^{00}$-$15^{00}$
**E-mail ünvanı:** ibadov_rakif@mail.ru
**III Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**
1.Mübariz Əmirov. Tam orta məktəbdə tarixin fəal interaktiv təlimi metodikası (Ali məktəbin tarix fakultəsi tələbələri üçün dərs vəsaiti. Bakı, 2011.
2.Tarixin tədrisində müasir üsullar. (Sənədlər, tövsiyələr, nümünələr) Bakı, 2000.
3.Məlikov R. Nəcəfəli T.Tarixin interaktiv təlimi. Müəllimlər üçün vəsait. Bakı, 2002
4.Paşayev N. Tarixin tədrisi metodikası. Bakı, 2000.
5.Veysova Z. Məktəb müəllimləri üçün fəal təlim metodlarına giriş kursu,təlimçilər üçün metodik vəsait. Bakı,2000
6.Xəlilov R. Tarixin təliminin metodikası. Bakı,2001.
7.Veysova Z. Fəal interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı, 2007.
8.Nəcəfli Tofiq.Təlim prosesiundə innotiv metodlardan istifadə. Taxix fənni üzrə dərsliklin hazırlanması layihəsi. Bakı 2000
12.Orta məktəblərdə tədrisin interaktiv ( fəal təlim metodikası).Ali məkəblərin tarix fakültələri üçün).Dərs vəsaiti.Bakı , 2011.
13. Cəlilov Azər. Azərbaycan tarixinin tədrisində şagirdlərdə tarix anlayışlarının formalaşdırılması üzrə işin sistemi.V-XI siniflər materalları əsasında. Bakı, 2009.
**IV Prerekvizit fənlər:** Fənnin tədrisi üçün öncədən başqa fənnin tədrisinə zərurət yoxdur.
**V Korekvizit fənlər:** Fənnin tədrisi ilə eyni vaxta başqa fənnin tədrisinə ehtiyac yoxdur.
**VI Fənnin təsviri və məqsədi:** Tarixin tədrisi prosesində əyanilik və onun vasitələri fənninin tədrisində təsəvvür anlayışı, predmet əyaniliyi, təsviri əyanilik, texniki təlim vasitələrindən, bədii şəkillərlə iş üsulları, tipoloji şəkillərdən, portretlərdən və karikaturalarlardan istifadə, diaqramlarla iş üsulları, sxemlərlə, xəritələrlə işin təşkili, icmal və mövzu xəritələrindən istifadə üsulları öyrənilir. Fənnin tədrisində məqsəd əyanilik və onun vasitələrindən istifadə edilməsinin predmet və vəzifələrini magitrantlara öyrətməkdir.
**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

CamScanner ilə skan edilib

**VIII. Qiymətləndirmə:** Fənn üzrə tələbələrin biliyi 100 ballıq sistemlə qiymətləndirilir. Yəni tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı (50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə (aralıq qiymətləndirmə) görə verilir.
Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:
- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.
İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.
Qiymət meyarları aşağıdakılardır:
- 10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu tam aça bilir;
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal - tələbənin cavabı əsasən düzgündür;
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal - cavab yoxdur.

Tələbənin fənn üzrə aralıq qiymətləndirmə balının (imtahanda topladığı balın) miqdarı 17 dən az olmamalıdır. Əks təqdirdə tələbənin fənn üzrə aralıq qiymətləndirmə balı cari qiymətləndirmə balına (semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala) əlavə olunmur.
Fənn üzrə cari və aralıq qiymətləndirmənin ümumi nəticəsinə görə tələbənin biliyi yekun olaraq aşağıdakı kimi qiymətləndirilir:

| Bal aralığı (göstərilən ballar daxil olmaqla) | Hərflə işarəsi | Sözlə yazılışı |
|---|---|---|
| 91-100 bal | A | əla |
| 81-90 bal | B | çox yaxşı |
| 71-80 bal | C | yaxşı |
| 61-70 bal | D | kafi |
| 51-60 bal | E | qənaətbəxş |
| 51-baldan aşağı | F | qeyri-kafi |

**IX Davranış qaydalarının pozulması:**
Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.
**X Təqvim-mövzu planı:** Mühazirə 15 saat, seminar 15 saat. **Cəmi 30 saat.**

| № | Keçirilən mühazirə və seminar mövzuların məzmunu | Saat | | Tarix |
|---|---|---|---|---|
| | | Mühazirə | Seminar | |
| 1. | **Mövzu: Tarix təlim metodlrı**<br>Plan:<br>1. Tarix təhsili və təlimi, onların əsas kateqoriyaları.<br>2. Təlim metodlarının təsnifatı<br>3. Problem-axtarış metodları<br>4. Əyani təlimin funksiyalari və əhəmiyyəti<br>**Mənbə:** [1,7,8,10,12,13] | 2 | 2 | |

CamScanner ilə skan edilib

| | | | | |
|---|---|---|---|---|
| 2. | **Mövzu: Şifahi şərh metodu**<br>Plan:<br>1. Tarixi materialın şifahi şərhinin funksiyaları və əhəmiyyəti<br>2. Şifahi şərhin monoloji formasının əsas növləri - nəqletmə, məlumat, təsvir, xarakteristika, izah və müsahibə<br>3. Şifahi şərhin formaları: tarixi hadisələrin nəql edilməsi və onlar haqqında məlumat verilməsi, təsvir və mühakimə, izah, məktəb mühazirəsi<br>4. Şərhin obrazlığı və konkretliyinin yüksəldilməsinin, vasitə və priyomları<br>5. Tədris materialının şərhinə verilən başlıca tələblər<br>6. Tarix dərslərində müsahibə. Müsahibə tarixin təliminin dialoji şərh üsuludur<br>**Mənbə:** [1,2,3] | 2 | 2 | |
| 3 | **Mövzu: Müzakirə, rollu oyunlar və təqdimat qrupları üzrə çarpaz üsullar**<br>Plan:<br>1. Müzakirə üsulları<br>2. Debatlar (çarpaz müzakirə)<br>3. Dəlillərin hazırlanması<br>4. Debat və çarpaz suallar<br>5. Müzakirə xəritələri<br>6. Klassik dialoq (Sokrat dialoqu)<br>**Mənbə:** [1,2,6,7, 8,9,10] | 2 | 2 | |
| 4 | Mövzu: **Tarixin tədrisində əyani təlim metodu**<br>Plan:<br>1. Əyani təliminin funksiyaları<br>2. Tarixin tədrisində texniki təlim vasitələrdən istifadə<br>3. Tarix dərslərində tədris şəkilləri ilə iş üslubu<br>4. Xəritə ilə işin təşkili<br>**Mənbə:** [1,2,3,8;] | 2 | 2 | |
| 5 | **Mövzu: Tarix təlimində nəşr edilmiş materiallarla iş**<br>Plan:<br>1. Tarix təlimində dərsliklərlə şagirdlərin tanış edilməsi.<br>2. Dərsliyin mətni üzərində iş.<br>3. Tarixi sənədlrlə iş<br>4. Tarix dərslərində bədii ədəbiyyatdan istifadə<br>**Mənbə:** [1,2,3, 4] | 2 | 2 | |
| 6. | **Mövzu: Tarix təlimində yeni texnologiyalardan istifadə**<br>Plan:<br>1. Müasir təlim metodları, yeni pedaqoji texnologiyaların tədbiqi<br>2. İnterativ təlim metodları-İKT və onların tədbiqi<br>3. Tarix təlimində multimediya texnologiyalardan istifadə<br>4. Tarix təlimində kompyuter texnologiyalardan istifadə<br>5. Modul təlimin texnologiyası.<br>**Mənbə:** [1,3,4,11] | 2 | 2 | |
| 7. | **Mövzu: Tarixin tədrisi presesində şagirdlərin müstəqil işinin təçşkili üsulları**<br>Plan:<br>1. Tarixin tədrisi prosesində əyani vasitəni hazırlayan qrupun fəaliyyəti<br>2. Tarixin tədrisi prosesində xronojiyaya aid işin təşkili<br>3. Tarixin tədrisi prosesində məntiqi sxemlərin hazırlanması | 2 | 2 | |

CamScanner ilə skan edilib

| | | | | |
|---|---|---|---|---|
| | Mənbə: [1,3,4,11] | | | |
| 8. | **Mövzu: Tarixin tədrisi prosesində interaktiv təlimə aid biliklərin yoxlanılması və qiymətləndirilməsi**<br>Plan:<br>1. Tarixin tədrisi prosesində xronoji bilikləriiiiin yoxlanılması<br>2. Tarixin tədrisi prosesində kartoqrafik bilikləriiiiin yoxlanılması<br>3. Tarixin tədrisi prosesində formalaşdırılmış və subyekləşdirilmiş biliklərin yoxlanılması üçün test tapşırılıqları<br>**Mənbə:** [1,3,4,11] | 1 | 1 | |

**XI Fənn üzrə tələblər:**

Əyanilik prinsipinin tarixi qədimdir. O, təlimi mücərrəd sözlər üzərində deyil, öyrənci tərəfindən bivasitə qavranılan konkret şeylər və hadisələr üzərində qurmağı nəzərdə tutur.

Təlim prosesində əyaniliyin idrak yükü çoxmənalıdır:

- Əyani surətlərdə konkret tarixi hadisələrin müxtəlifliyi əks olunur;
- Əyanilik dərketmə fəaliyyətini asanlaşdırır və təchiz edir;
- Tələbədə canlı gerçəkliyi qavramasını və müşahidə etməsini təşkil edir;
- Əyaniliyin yaratdığı canlı assosiasiyalar uzun müddət yadda qalır;
- Təxəyyülün yaranmasına kömək edir, yaradıcı fəallığa yardım göstərməsi sayəsində əyani surətd əonların konkretləşdirilməsi üçün köməkçi bir əsas olur.

**XII Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

- mühazirə, seminar, praktiki tapşırıqlar
- təqdimat və müzakirə
- debat
- müstəqil iş/araşdırma

**XIII Fənn üzrə təlimin nəticələri:**

- Tarixin tədrisində əyaniliyin funksiyaları və əhəmiyyəti öyrənir.
- Tarix təlimində texniki təlim vasitələrindən istifadə qaydalarını bilir.
- Tarixin tədrisində əyanilik və rollu oyunları hazırlayır.
- Tarixin dərslərində təqdimatların əhəmiyyəti və təsəvvür anlayı anlayır.
- Tarixin tədrisində məntiqi təfəkkürə yönəldilmiş üsullar və texnikaları öyrənir.
- Tarixin tədrisində yaradıcılığa yönəldilmiş üsullar və texnikaları mənimsəyir.

**XIV Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XV Kollekvium sualları:**

**I Kollekvium sualları:**

1. Tarix təhsili və təlimi, onların əsas kateqoriyaları.
2. Təlim metodlarının təsnifatı
3. Problem-axtarış metodları
4. Əyani təlimin funksiyalari və əhəmiyyəti
5. Tarixi materialın şifahi şərhinin funksiyaları və əhəmiyyəti
6. Şifahi şərhin monoloji formasının əsas növləri - nəqletmə, məlumat, təsvir, xarakteristika, izah və müsahibə
7. Şifahi şərhin formaları: tarixi hadisələrin nəql edilməsi və onlar haqqında məlumat verilməsi, təsvir və mühakimə, izah, məktəb mühazirəsi
8. Şərhin obrazlığı və konkretliyinin yüksəldilməsinin, vasitə və priyomlara
9. Tədris materialının şərhinə verilən başlıca tələblər
10. Tarix dərslərində müsahibə. Müsahibə tarixin təliminin dialoji şərh üsuludur

**II Kollekvium sualları:**

1. Müzakirə üsulları
2. Debatlar (çarpaz müzakirə)
3. Dəlillərin hazırlanmaı
4. Debat və çarpaz suallar
5. Müzakirə xəritələri
6. Klassik dialoq (Sokrat dialoqu)
7. Əyani təliminin funksiyaları

CamScanner ilə skan edilib

CamScanner ilə skan edilib